**Qutadqu-bilig**

Türk xalqlarının xilqətindəki inanış İslamda qanunauyğun inikasını tapdığı üçün türk və İslam mədəniyyəti VII-VIII yüzilliklərdən sonra türk-islam mədəniyyəti kimi dünya tarixinə daxil oldu. Bu böyük prosesi əks etdirən yüzlərcə, minlərcə örnəklər arasında "Qutaqdu-bilig" başda gəlir. Qut – türkcə səadət, xoşbəxtlik, uğurlu tale deməkdir. "Qutadqu-bilig" – xoşbəxtliyə, səadətə aparan elm, bilik deməkdir. Bu möhtəşəm abidənin müəllifi türk-islam mədəniyyətinin ilk böyük sənətkarı Yusif Xas Hacibdir.

"Qutadqu bilik" ilk olaraq Tanrının, Məhəmməd peyğəmbər və onun 4 əshabəsinin Əbubəkr, Ömər, Osman və Əlinin, o cümlədən dövrün hakimi Buğra xanın tərifi ilə başlayır. Bunların ardınca gələn təxminən 270 beytlik müxtəlif başlıqlı parçalarda kainatın yaranması, 7 səyyarə, 12 bürc və insan haqqında məlumat verilir. Kitabda özünə yer tapan bundan sonrakı (təxminən 6000 beyt) bütün məsələlər 4 ulu və möhkəm təməl üzərində qurulur: a) ədalət; b) səadət; c) ağıl; d) qənaət və aqibət.

Əsərdə Gündoğdu ədalətin, Aydoldu səadətin, Öydülmüş ağlın, Odqurmuş isə aqibətin rəmzidir. Əsər boyu bütün məsələlər türk adı ilə ifadə olunmuş obrazlarla əlaqəli təqdim olunur. Müəllif bu obrazların fəaliyyət çevrəsində bir tərəfdən dövlət, cəmiyyət, sosial-hüquq, məişət, digər tərəfdən isə axirət və dünya problemlərini diqqət mərkəzinə çəkir. Buna görə də əsərdə "dünyaya gələn gündən adını alıb, atını minən, mənzil-mənzil ölümə yaxınlaşan", "özü yox, adı əbədi olan" insanın "müvəqqəti dünya ilə" "əbədi aləm" xəttindəki yeri və mövqeyi tam müəyyənləşir, onun nəfsi tərksilah olunur. Müəllif Gündoğdu, Aydoldu, Öydülmüş və Odqurmuşun əməl, fəaliyyət, həyata baxış və dünyagörüşlərini geniş dairədə təqdim edir. Məhz bu təqdimatda hökmdar və cəmiyyət, insan və dünya, insan və əbədi aləm problemləri önə çəkilərək ədalətli cəmiyyət idarəçiliyi barədə təsəvvür genişləndirilir. O cümlədən, bu dünya və axirətdə xoşbəxt olmağın yolları göstərilir. Gündoğdu Elik ədalətin rəmzidir. Onun xarakteri günəşin əlamətlərinə uyğun təqdim olunur. Günəş formasını, işığını dəyişmədiyi kimi Gündoğdunun da ədalətli "nur və işığı" dəyişməzdir, günəş kainata işıq və istilik bəxş etdiyi kimi, onun da ədaləti insanlara rahatlıq və əmin-amanlıq bəxş edir, günəşin bürcü və təməli sabit olduğu kimi Gündoğdu da ədalətli hökmündə, rəftarında sabit və qərarlıdır və s. Əsərdə bu cür təsəvvürlər Aydoldunun şəxsində bir qədər də konkretləşir, fikirlər qarşılıqlı mükalimədə təqdim olunur. Doğruluğu özünə şüar edən Aydoldu qüsursuz xidməti ilə tanınır. Əsərdə onun adının mənası ayla müqayisədə açıqlanır: "Ay göydə birinci gün kiçik görünür, günlər keçdikcə böyüyür, bədirlənib dünyanı işıqlandırır, böyüyüb ən yüksək zirvəyə çatır, təkrar kiçilib yenidən böyüməyə başlayır". "Qutadqu bilik" əsərində Aydoldunun ictimai-siyasi, fəlsəfi, mənəvi, psixoloji görüş və digər həyati baxışları Gündoğdu və oğlu Öydül- müşlə söhbətlərində diqqəti cəlb edir. Bu söhbətlər əslində türk təfəkkürü yanaşmasında dövlət, cəmiyyət, ədalət və s. problemlərə baxışın ölçü və meyarlarını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

"Qutadqu bilik"də ifadə gözəlliyi baxımından diqqəti çəkən yüzlərlə nümunəyə rast gəlmək mümkündur: "Kamalın bəzəyi dil, dilin bəzəyi sözdür, insanın bəzəyi üz, üzün bəzəyi isə gözdür", "hər kəsin hərəkəti onun əslinə şahiddir, hərəkəti nədirsə, əsli də odur", "insanın özü əbədi deyil, adı əbədidir", "pis söyülər, yaxşı öyülər", "biliksiz kişi həmişə xəstə olar", "ağıl qaranlıq gecədə bir çıraqdır", "hirslə iş tutan peşman olur", "kimdə ağıl olsa, o əsilli olar" və s. Bu cür deyimlər əsərin dil və üslub baxımından zənginliyini, türk dilinin ifadə imkanlarının genişliyini təsdiqləmiş olur.